# Su və sanitariya xidmətlərinin qiymətləndirilmə cədvəli çərçivəsində Azərbaycanda insanların bərabərhüquqlu İstifadəsinin qiymətləndirilməsi

**Su və sağlamlıq haqqında protokol çərçivəsində seminar**


Dr.Leylaxanım Tağı-zadə
Səhiyyə Nazirliyi

Aytən Rzayeva
Ekologiya və Təbii Sərvətlər Nazirliyi

# Su və sanitariya xidmətlərinin qiymətləndirilmə cədvəli çərçivəsində Azərbaycanda insanların bərabərhüquqlu İstifadəsinin qiymətləndirilməsi

- *Su və sanitariya xidmətlərindən istifadənin mümkünlüyü, Birləşmiş Millətlər Təşkilatı və İnsan Hüquqları Şurası tərəfindən insan hüquqlarının ayrılmaz hissəsi olan, ləyaqətli həyat tərzinə malik olma hüququ kimi qəbul edilmişdir.*

# ÜMUMİ MÜDDƏALAR VƏ HÜQUQİ BAZA

- Azərbaycanın su sektoru müvafiq qanun və normativ-hüquqi aktlarla tənzimlənir. Azərbaycan Respublikasının Konstitusiyasında su resursları üzrə Dövlətin funksiyaları haqqında bəzi müddəalar nəzərdə tutulur (11, 14,16 maddələr).

- 39-cu maddə Azərbaycan Respublikası vətəndaşlarının bütün insan hüquqlarının ayrılmaz hissəsi olan sağlam ətraf mühitdə yaşamaq hüququnu müəyyən edir. İdarəetmə, tənzimlənmə, təmin etmə, təhlükəsizlik, su və su obyektlərinin mühafizəsi ilə bağlı bütün məsələlər aidiyyəti dövlət orqanları tərəfindən razılaşdırılır və Nazirlər Kabinetinin qərarları ilə təsdiq edilir.

- Maliyyə məhdudiyyətləri məqsədli göstəricilərin tətbiqi və su sektorunda hər hansı problemlərin həllinə yönəldilən tədbirlərin həyata keçirilməsi üçün heç bir maneə ola bilməz.

# ÜMUMİ MÜDDƏALAR VƏ HÜQUQİ BAZA

- Mövcud hüquqi və siyasi öhdəliklər su və sanitariya xidmətlərində qeyri-bərabərlik problemlərinin həllini tələb edir.
- 2002-ci ildə Azərbaycan Su və Sağlamlıq Protokolunu ratifikasiya edib.
- Bununla, Azərbaycan 2015-ci il üçün su və sanitariya üzrə göstərilən xidmətlərin coğrafi fərqlənmə nəzərə alınmaqla, əhalinin həssas qruplarına, o cümlədən məktəbəqədər və məktəbli uşaqlara, tibbi müəssisələrinə bərabərhüquqlu çatdırılması öhdəliklərini üzərinə götürüb.
- Bu məqsədli göstəricilərə nail olmaq üçün davamlı inkişafın maliyyə hədəfləri nəzərə alınıb.

# PROBLEMLƏRİN HƏLLİ ÜÇÜN MÜXTƏLİF YANAŞMALAR

- Bəllidir ki, su və sanitariya xidmətlərinin istifadəsi zamanı bütün ayrı-seçkiliyin aradan qaldırılması üçün şəffaflığa, məlumatların əlverişliliyinə riayət etmək lazımdır. Maarifləndirmə və iştirak etmə mexanizmi institusional xarakter daşımalıdır. Pilot layihələrdə təklif olunan mexanizmlər bu boşluqların aşkarlanmasına kömək edəcəkdir.

- Hal-hazırda biz ölkədə əlverişli səviyyədə olan əhəmiyyətli coğrafi fərqlənmələri nəzərə alaraq, milli səviyyədə pilot qiymətləmdirmə cədvəlinin tətbiq edilməsinə hazırlaşırıq.

# MONİTORİNQİN NƏTİCƏLƏRİ

- 2006-cı il ərzində CMP və UNİCEF tərəfindən aparılmış ümumi global monitorinq proqramının nəticələri Azərbaycanda əhalinin yaxşılaşdırılmış su çatımı xidmətlərindən istifadə etməsini göstərir:
  - **şəhər-86%;**
  - **kənd- 68%;**
  - **ümumi– məlumat yoxdur;**
  - **təkmilləşmiş sanitariya üçün: şəhər-93%, kənd-73%, ümumi-75%.**
- 2013-cü ildə həmin göstəricilər aşağıdakılar kimi olmuşdur:
  - **Əhalinin sudan istifadəsi: şəhər- 98%, kənd-74%, ümumi-87%;**
  - **təkmilləşmiş sanitariya üçün: şəhər -96%, kənd-78%, ümumi-88%**

- Beləliklə, coğrafi bərabərsizliyin azaldılmasında müsbət dəyişikliklər müşahidə olunur. Buna səbəb ölkədə siyasi meyarların qəbul edilməsidir.
- Yalnız 2009-2013 illər üçün ölkənin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramına uyğun olaraq 3,4 min km-dən çox su boruları, 1,2 min km-dən çox kanalizasiya xəttləri çəkilib, 96 içməli su rezervuarı inşa edilmişdir.

# Naİlİyyətlər

- 2014-cü ildə yeni və bərpa edilmiş su təchizetmə sistemləri istismara buraxılmış və nəticədə 121 yaşayış məntəqəsində yaşayan 480 min nəfər təhlükəsiz və fasiləsiz su ilə təmin edilmişdir.

- Bundan əlavə, ölkədə 175 min nəfər əhali ilk dəfə mərkəzləşdirilmiş içməli su ilə təmin olunmuşdur.

## XƏZƏR SULARıNıN ŞiRiNLƏŞDiRiLMƏSi MƏQSƏDi iLƏ ZAVOD iSTiSMARA BURAXiLiR VƏ GÜNDƏLiK 2500 M$^3$ HƏCMiNDƏ SU iSTiFADƏYƏ VERILIR. BUNUNLA DA, QƏNAƏT EDiLMiŞ IÇMƏLI SU KƏND ƏHALiSiNiN EHTiYACLARı ÜÇÜN ISTIFADƏ OLIUNUR.









# Nailiyyətlər

- Yuxarıda qeyd edildiyi kimi, ölkədə, Dövlət Proqramlarına müvafiq olaraq, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş məqsədyönlü effektiv işlər aparılır.
- Təklif olunan Qiymətləndirmə cədvəlinin istifadəsi çox aktualdır. Güman edirik ki, toplanacaq məlumat strateji boşluqların aşkarlanması və xüsusi tövsiyələrin hazırlanması üçün prioritet sahələrinin müəyyən edilməsinə kömək edəcəkdir.
- Qrafiki əlavə et

# HAZIRLIQ İŞLƏRİ

- Mexanizmin həyata keçirilməsinə gəldikdə isə qeyd etməliyik ki, layihənin işləməsi üçün aparıcı şəxslər müəyyən edilmişdir - Səhiyyə Nazirliyindən və Ekoloqiya və Təbii Sərvətlər Nazirliyindən Su və Sağlamlıq üzrə Protokolun iki əlaqələndiricisi təyin olunmuşdur. Əsas qrupu isə aşağıdakı ekspertlər təşkil edəcəkdir:
  - Ombudsman aparatının mütəxəssisi;
  - BDU –nun nümayəndəsi
  - “AZƏRSU” açıq səhmdar cəmiyyətinin mütəxəssisi;
  - “Birləşmiş Su Kanal” MMC-nin mütəxəssisi;
  - Ədliyyə Nazirliyinin Pentensiar Xidmətinin mütəxəssisi.

- Əsas qrupun üzvləri üçün texniki məsələlərin, həmçinin təhlilin keçirilməsi və tövsiyyələrin hazırlanmasına dair bəzi fikirlər mövcuddur

# Gözlənilən nəticələr

- Prioritetlərin və imkanların qiymətləndirilməsi;
- Aztəminatlı qruplara əsaslanaraq məqsədli göstəricilərin və indikatorların işlənib hazırlanması;
- Qərarların qəbuletmə prosesində ictimai təşkilatlarda olan imkanların istifadəsi və gücləndirilməsi.

# Diqqətinizə görə təşəkkür edirik!

